# TOVHİDİN ƏZƏMƏTİ

*Şəriət risalələri silsiləsindən:*

## Tovhid elminin əzəməti.

*Rəhmli və mərhəmətli Allahın adı ilə.*

Müsəlmanların və dəvət sahiblərinin əksəriyyəti dinin ən əsas prinsipi olan Tovhidin həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin tərbiyə və islahında mühüm rolunu və həmçinin, bu prinsipin tətbiqi və iqrarı uğrunda cihadla zəngin olan şərafətli Peyğəmbər həyatının tarixini kifayət qədər bilmirlər.

Tovhidin ərəb dilində hərfi mənası fərdləşdirmək (yəni təkləmək, tək hesab etmək) deməkdir. Şəriət mənasında "tovhid" - Allah təalanın fərdiləşdirilməsi, Ona xas və vacib olanların təkliyinin iqrar edilməsi deməkdir.

Yalnız Allaha xas olanlar bunlardır: rübubiyyət, adlar, sifətlər və qəza-qədər. Allaha vacib olan bəndənin Ona tam sədaqətlə ibadət etməsidir.

Tərifdən göründüyü kimi Tovhidin üç növü vardır: rübubiyyət tovhidi, adların və sifətlərin tovhidi və üluhiyyət (ibadət) tovhidi.

Əziz qardaşım. Tovhidin böyük əhəmiyyəti özünü aşağıdakılarda göstərir:

1) Allah təala insanları yalnız Onun təkliyini -Tovhidin iqrar etmək üçün yaratmışdır. Allah təala bu barədə buyurur: **«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım»** *(əz-Zariyat, 56)*.

2) Tovhid islam deməkdir, islamın əsası deməkdir. Peyğəmbərlər öz tayfalarına məhz Tovhidin təbliği və insanları onu iqrar etməyə dəvət etmək üçün göndərilmişlər.

Allah təala ən-Nəhl surəsinin mübarək 36-cı ayəsində buyurur: **«Biz hər ümmətə: "Allaha ibadət edin və Tağutdan çəkinin!"- deyə peyğəmbər**

**göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yoldan azmalı olmuşdur. Yer üzündə dolaşıb görün ki,** *(peyğəmbərləri)* **yalançı hesab edənlərin axırı necə oldu».** Tağut Allahdan başqa məbud kimi qəbul ediləndir.

Nuhdan başlayaraq Məhəmmədədək *–səllallahu aleyhi və alihi vəssəlləm-* peyğəmbərlər öz dəvətini Tovhidə çağırışla başlamışlar. Allah təala çox saylı curələrdə və ayələrdə bu fikri iqrar edir:

a) **«Həqiqətən, Biz Nuhu öz tayfasına peyğəmbər göndərdik. Nuh dedi: "Mən sizi** *(Allahın əzabı ilə)* **açıq-aşkar qorxudan bir peyğəmbərəm! Allahdan başqasına ibadət etməyin. Mən** *(cəzası)* **şiddətli günün sizə üz verəcək əzabından qorxuram!»** *(hud, 25, 26)*.

Eyni fikir əl-Ə`raf surəsinin 59-cu ayəsində də təkrar edilir.

b) «**Ad tayfasının içinə qardaşları Hudu peyğəmbər göndərdik. O dedi: “Ey mənim tayfam! Allaha ibadət edin. Ondan başqa məbud olacaq tanrı yoxdur. Siz isə iftiralar yayanlarsınız”»** *(Hud, 50).*

Eyni fikir əl-Ə`raf surəsinin 65-ci ayəsində də ifadə edilir.

v) «**Səmud qövmünə də qardaşları Salehi** *(peyğəmbər göndərdik)*. **O dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur…»** *(Hud, 61)*.

q) «**Mədyən əhlinə də qardaşları Şüeybi** *(peyğəmbər göndərdik)*. **O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Ölçünü və çəkini əskiltməyindüz olun. Mən sizi xeyir-bərəkət içində görürəm. Bununla belə** *(Allahın hökmlərinə riayət etməyəcəyiniz təqdirdə)* **sizi bürüyəcək bir günün əzabından qorxuram!»** *(Hud,*

*84).*

d) «**İsa aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqətən, mən sizə hikmətlə** *(peyğəmbərliklə)*, **həm də ixtilafda olduğunuz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! Şübhəsiz ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoludur!"**» *(əz-Zuxruf, 63-64).*

c) *(Ya Məhəmməd)* **Söylə: "Biz Allaha, bizə nazil olana** *(Qurana)*, **İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun oğullarına nazil edilənə, Rəbbi tərəfindən Musa, İsa və** *(sair)* **peyğəmbərlərə verilənlərə inandıq və onların heç birini bir-birindən ayırmırıq. Biz yalnız Ona təslim oluruq!"**» *(Ali-İmran, 84).*

3) İbrahim öz qövmünə Tovhid kəlməsi ilə müraciət etmişdir və Allahdan İsmail və Məhəmməd *–səllallahu aleyhi və alihi*

*vəssəlləm-* belindən gələnlərin onun zürriyyətində saxlamasını istədi.

Allah təala buyurur: «**Yadına sal ki, bir zaman İbrahim atasına və qövmünə demişdi: "Mən sizin ibadət etdiklərinizdən** *(bütlərdən)* **tamamilə uzağam. Yalnız məni yoxdan yaradandan** *(Allahdan)* **başqa. Şübhəsiz ki, O məni doğru yola müvəffəq edəcəkdir!"**» *(əz-Zuxruf, 26-27).*

4) Allah İsrail övladlarına Tovhidi, onun tələblərini, şərtlərini bəyan etdi. Bu ali bir prinsip idi ki, onlar onu qorumalı və rəhbər tutmalı idilər.

Allah təala buyurur: «**Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan** *(yaxşılıq, kömək)* **edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!"- deyə əhd-peyman aldıq. Sonra az bir qisminiz**

**müstəsna olmaqla, əhdinizdən döndünüz, çünki siz üz döndərənsiniz»** *(əl-Bəqərə, 83)*.

5) Tovhid məhz İslam deməkdir ki, Allah təala yalnız onu qəbul edir: **«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq** *(haqqa tapınaraq)* **O qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər. Allah yanında** *(haqq olan)* **din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər** *(yəhudi və xaçpərəstlər)* **ancaq** *(bu dinin həqiqi olduğunu)* **bildikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa** *(ayrılığa)* **başladılar. Allahın hökmlərini inkar edən şəxslə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir»** *(Ali-İmran, 18-19)*.

6) Tovhid mömini kafirdən ayıran sərhəddir. Məhəmməd peyğəmbərlə – *səllallahu aleyhi və alihi vəssəlləm-*

Nəcrandan olan xristian nümayəndə heyəti arasında mübahilə bu mövzuda olmuşdur. Mübahilə öz çağırışlarında yalançı olanlara lənət deyilməsidir.

7) Tovhid **“Lə iləhə illəllah”**a - İslama giriş üçün açardır. Onun iqrarı ilə insanın qanı, malı və ailəsi ölümdən xilas edilir. Cihad qılıncları məhz onun uğrunda siyrilərdilər.

Səhih bir hədisdə deyilir: *“Mənə insanlarla: “Lə iləhə illəlah, Muhəmmədən rəsulullah”* [Allahdan başqa (ibadət haqqı olan) tanrı yoxdur, Məhəmməd Onun rəsuludur] *deyənə qədər onlarla döyüşmək əmr edilmişdir. Belə etsələr onların qanı da, malı da xilas ediləcəkdir. Əks təqdirdə onların haqq-hesablarını Allah özü çəkəcəkdir”.*

8) Tovhid, yəni **“La iləhə illəlah, Muhəmmədən rəsulullah”** cənnətə giriş açarıdır.

Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir: *"Allahdan başqa (ibadət haqqı olan) tanrının olmadığını öyrədərək ölən adam cənnətə daxil olacaqdır".* (Müslim, Kitabul iman, fəsil 10, hədis 44).

Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir: *"Şəhadət edirəm ki, Allahdan başqa ibadət haqqı olan tanrı yoxdur, Məhəmməd Allahın rəsuludur" şəhadətini tərəddüdsüz qəbul edən adam cənnətə daxil olur"* (Müslim, 10/44).

həmçinin deyir: *"Bu divarın arxasında bir nəfərin Allahdan başqa ibadət haqqı olan tanrı yoxdur şəhadətini verdiyini və onu qəlbən tam yəqinliyi ilə qəbul etdiyini görsən, ona cənnət mücdəsini çatdırmalısan"* (Müslim, 10/52).

9) **"Lə iləhə illəlah"** deməklə olan Tovhid, həm də yalnız vahid, şəriksiz Allaha ibadət edin deməkdir. Bu Allahın bütün bəndələri üzərində

haqqıdır. Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir:
*"Allahın bəndələr üzərində haqqı budur ki, Ona ibadət etsinlər, heç nəyi Ona şərik qoşmasınlar"* (Müslim, 10/49).
10) Tovhidi iqrar edib həyata keçirən şəxsi Allah oddan uzaqlaşdırır. Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir: *"Allahdan başqa ibadət haqqı olan tanrının olmadığını və Məhəmmədin Onun rəsulu olduğunu iqrar edən şəxsi Allah oddan uzaqlaşdıracaqdır"* (Müslim, 10/47).
11) Tovhidlə görülən az əməl belə xeyirlidir. Tovhidsiz əməl məqbul olmaz.

Ubədə bin əs-Samit *–radıyallahu anhu-* demişdir: *"Peyğəmbər –səllallahu aleyhi və alihi vəssəlləm- buyurur ki, Allahdan başqa ibadət haqqı olan tanrının olmadığını, Məhəmmədin Onun qulu və rəsulu, İsanın Allahın qulu, Onun*

*qulunun Məryəmə göndərdiyi sözün və ruhunun olduğunu, cənnətin haqq, odun haqq olduğunu deyəni Allah öz əməlinə görə cənnətə daxil edəcəkdir"* (Müslim, "Kitabul iman", 10/46).

Tovhid yeganə bir ifadədir ki, ölüm yatağında onu deyənə xeyir verə bilir. Bu vaxt ondan da xeyirli bir söz yoxdur. Ölümdən qabaq son kəlməsi **"Lə iləhə illəlah"** olan dəhrin bir günündə cənnətə daxil olacaqdır, bundan əvvəl baş verənlərin heç bir əhəmiyyəti yoxdur *(Müslim, "Kitabul iman", 10/43)*.

12) Tovhid ifadəsi yeganə bir söz idi ki, Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* ölüm ayağında olan əmisi Əbu Talibdən vəfat etməmişdən qabaq onu deməsini çox istəmişdir və həmçinin, məhz bu sözü ölülərə təlqin etməyi bizə əmr etmişdir.

Rəvayətdə deyilir: *"Ey əmi, "Lə iləhə illəlah" de. Bu sözlə Allah dərgahında*

*sənin üçün şahidlik edərəm"* (Müslim, 9/39).

Başqa hədisdə Peyğəmbər: *"Ölülərinizə "Lə iləhə illəlah" kəlməsini təlqin edin" - demişdir*" (Müslim).

13) Tovhid dənizlər qədər və ya Yer kürəsi boyda olan günahları belə yuyur. Tovhidi bilmək və ona dəvət etməkdən də böyük ehsanat ola bilməz.

əl-Qudsinin hədisində deyilir: *"Ey Adəm oğlu! Mənə etdiklərini və Məndən istədiklərini sənə bağışladım. Səninki səndə qalır. Bu mənim üçün heç nədir. Ey Adəm oğlu! Sənin günahların səmalar qədər də olsa, amma sən istiğfar etsən (bağışlanma diləsən) səni bağışlaram, bu mənim üçün heç nədir. Ey Adəm oğlu! Əgər sən dərgahıma Yer kürəsi boyda qəbahətlərlə gəlib mənimlə görüşsən, amma mənə şərik qoşmasan, sənə Yer kürəsi boyda əfv əta edərəm"* (ət-Tirmizi, 3789).

14) Tovhidin çəkisi Qiyamət günü Allahın köməyi ilə bütün günahlardan üstün gələcəkdir.

Əs-Suyutinin "Səhihu əl-camiu əs-sağir" əsərində 1776-cı hədisində deyilir: *"Qiyamət günü mənim ümmətimdən olan bir nəfəri hamının qarşısına çıxarıb ona doxsan doqquz siccil (kitab) göstərirlər. Hər bir siccil öz hökmünə görə gözün gördüyü məsafə qədər olur. Ondan soruşurlar: Bu siccildən bir şey xatırlayırsanmı? Katiblər sənə münasibətdə ədalətsizlik etmişlərmi? Bu adam cavab verir: "Yox, ya Rəbb!" Ona deyirlər: "Sənin üzrün və ya ehsanatın varmı?" Adam qorxub deyir: "Yox!" Ona deyirlər: "Bəli, sənin yaxşı əməllərin bizə məlumdur. Sənə bu gün zülm edilməz, onun üçün üzərində* ***"Əşhədu ən lə iləhə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu"*** *— Şəhadət edirəm ki, Allahdan başqa ibadət*

*haqqına malik Tanrı yoxdur və Məhəmməd onun qulu və rəsuludur" sözləri yazılmış bir vəsiqə çıxarırlar. Həmən adam soruşur: "Ya Rəbb, bu vəsiqə və bütün bu siccillər nə deməkdir?" Ona belə cavab verirlər: "Sənə zülm edilməz". Siccillər onun bir çiyninə, vəsiqə isə başqa çiyninə qoyulur. Siccillər yüngülləşir, vəsiqə isə ağırlaşır".*

15) Hər işin başlanğıcı Tovhidlə olmalıdır. Çünki o, iman və İslamın əsasıdır. Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* həyatının 23 mübarizə ilinin 13 ilini bütünlüklə yalnız tovhidə həsr etmişdir.

16) Tovhid müvəhhid olan mömin müsəlmanlarla kafir və müşriklərin ədavətinin əsasında durur. Çünki Tovhidlə onların rəhbər tutduqları Allahdan qeyrisinə etiqadları dağıdılırdı. Bu barədə Allah təala buyurur: **«Kitab əhlindən** *(yəhudilərdən*

*və xaçpərəstlərdən)* **kafir olanlar və müşriklər özlərinə açıq-aşkar bir dəlil gəlməyənə qədər** *(dinlərindən)* **ayrılan deyildilər.** *(Bu açıq-aşkar dəlil isə)* **pak səhifələri onlara oxuyan, Allah tərəfindən göndərilmiş peyğəmbərdir. O səhifələrdə doğru-dürüst hökmlər vardır. Kitab əhli yalnız özlərinə açıq-aydın dəlil** *(Peyğəmbər və Quran)* **gəldikdən sonra** *(dində)* **ayrılığa düşdülər. Halbuki onlara əmr edilmişdi ki, Allaha - dini yalnız Ona məxsus edərək, batildən haqqa** *(islama)* **dönərək - ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!»** *(əl-Bəyyinə, 1-5)*.

17) Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* bir sərkərdəni döyüşə və ya dəvətə göndərəndə hər şeydən əvvəl ona insanları Allahın tovhidini (təkliyini) iqrar etməyə çağırmağı və yalnız bundan sonra başqa işləri görməyi, bu çağırışı rədd edənləri isə qətlə yetirməyi

tövsiyə edərdi. Eyni tövsiyə ilə O, Muaz bin Cəbəli *–radıyallahu anhu-* Yəmənə, Əli bin Əbu Talibi *–radıyallahu anhu-* Xeybərə göndərmişdi. Muaza bu sözləri demişdi: *"Sənin yanına kitab əhli gəlsə, əvvəlcə onları Allahın təkliyini iqrar etməyə çağır. Əgər səninlə razılaşsalar, bildir ki, bunun müqabilində Allah onlar üçün bir gün və gecə ərzində beş namaz fərz yazmışdır..."*

Allah rizasını qazanmış Əliyə demişdi: *"Bayrağı qaldır, onların ölkəsinə yola düş. Bundan sonra görəcəyin ilk iş onları* ***"Lə iləhə illəllah"*** *şahadətinə çağırmağın olmalıdır* (əl-Buxari və Müslim).

18) Qurani Kərim bütünlüklə Tovhid kitabıdır:

İbn Qayyim əl-Cauziyyə *–rahmətullahi aleyh-* demişdir: "Quran Allah, Onun adları, sifətləri, əməlləri, kəlamları haqqında xəbərlərdir. Bu Tovhidin elmi-informasiya (xəbər, məlumat)

xarakterini açıb göstərir. Yalnız Allaha, şəriksiz və qeyrisi olmadan ibadət etməyə dəvət mənasında Tovhid Allahın iradə və tələbini ifadə edir. Ona itaətin qəbulu və ya inkarı tovhid hüququ və onun əlavələri deməkdir.

Tovhid əhlinin kəraməti barədə xəbər, onların bu dünyada əməlləri və axirətdə qazanacaqları mükafatlar – bütün bunlar insanın tovhidinin mükafatlarıdır. Şirk əhli barədə xəbər, onların bu dünyada yol verdikləri qəbahətlər və axirətdə məruz qalacaqları əzablar - bütün bunlar isə tovhiddən xaric olanlara veriləcək cəzalardır. Quran bütünlüklə tovhidin hüquqları və mükafatları, habelə şirk, ona yol verənlər və onların alacaqları cəzalar haqqında Allah kəlamıdır" *("Şərhu əl əqidəti Tahaviyyə", səh. 89).*

19) Qurani Kərimin ən əzəmətli surə və ayələri Tovhidə həsr olunmuşlar:

- əl-Fatihə surəsi — Kitabın anası.
- əl-İxlas surəsi — Quranın üçdə birinə bərabərdir.
- əl-Kafirun — Şirkdən bəraətdir.
- Kürsi ayəsi — ən əzəmətli ayədir.

20) Allah öz Peyğəmbərinə *–səllallahu aleyhi və alihi vəssəlləm-* tovhidi öyrətməyi və sonra müvəhhidlər üçün istiğfar (bağışlanma) diləməyi əmr etmişdir. Müşriklər üçünsə - ən yaxın adamlar olsalar belə, bağışlanma diləmək olmaz.

Allah təala buyurur: «*(Ya Məhəmməd)* **Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur.** *(Ondan)* **həm öz günahlarının, həm də mömin kişilərin və qadınların günahlarının bağışlanmasını dilə. Allah gəzib dolandığınız yeri də, dayanıb-duracağınız yeri də bilir!»** *(Məhəmməd, 19)*.

Allah təala həmçinin buyurur: **«Müşriklərin cəhənnəmlik olduqları bəlli**

**olduqdan sonra, onlara qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz! İbrahimin öz atası üçün bağışlanma diləməsi isə ancaq ona verdiyi bir vədə görə idi. Atasının Allaha düşmən olması İbrahimə aydın olduqda o öz atasından uzaqlaşdı. Həqiqətən, İbrahim yalvarıb-yaxaran və həlim xasiyyətli bir zat idi»** *(ət-Tövbə, 113-114)*.

21) Peyğəmbərlər tovhidin həyata keçirilməsi məsələsində böyük işlər görmüş olsalar da ona zidd olanlara münasibətdə ehtiyatlı olmuşlar. İnsan tovhidə yiyələndikcə ona atılan cırmaqlardan daha çox çəkinmişdir. Çünki şirk məxfidir, millətlər arasına sürünə-sürünə daxil olur ki, onları azdırsın, həqiqi məbuda ibadətdən yayındırsın. Buna görə də İbrahim demişdir: **«Ey Rəbbim! Onlar** *(bütlər)*, **həqiqətən, çox insanı** *(haqq yoldan)*

**azdırıblar. İndi kim ardımca gəlsə, o, şübhəsiz ki, məndəndir. Kim mənə qarşı çıxsa,** *(bilsin ki, tövbə edəcəyi təqdirdə)* **Sən** *(günahları)* **bağışlayansan,** *(bəndələrinə)* **rəhm edənsən!»** *(İbrahim, 36)*.

Əbu Səid əl-Xudridən belə bir rəvayət vardır: *"Rəsullulah –səllallahu aleyhi və alihi vəssəlləm- yanımıza gələndə Məsih Dəccalın (antixristin) adını çəkirdik. O dedi: "Mən nəyin Məsih Dəccaldan daha qorxulu olduğunu sizə deyimmi?" Biz dedik: "Bəli, ya rəsulullah" O dedi: "Gizli şirk: Namazı Allah deyil, ətrafdakılar üçün ən gözəl bir şəkildə qılmaq"* (İbn Macə. Etibarlı hədisdir. əl-Əlbani, 3389; əl-Müşkət, 5333. Səhihu ət-Tərğib, 27).

22) Tovhid Peyğəmbərin *–səllallahu aleyhi və alihi vəssəlləm-* şəfaətinin qazanılmasının yeganə vasitəsidir.

Əbu Hüreyrənin *–radıyallahu anhu-* rəvayətində deyilir: *"Mən soruşdum: "Ya Rəsulullah! Qiyamət günü sənin şəfaətini qazanacaq ən xoşbəxt adam kim olacaq? O dedi: "Ey Əbu Hüreyrə! Mən bilirdim ki, səndən başqa heç kəs bu sualla mənə müraciət etməz. Sənin hədisə böyük marağını nəzərə alıb deməliyəm ki, qiyamət günü mənim şəfaətimi qazanacaq ən xoşbəxt adam* ***"Lə iləhə illalah"*** *şəhadətini səmimi qəlbdən deyən olacaqdır"* (əl-Buxari, "Kitabu ər-rəqaiq" 51-ci fəsil, 61570 nömrəli hədis; "Fəthu əl-Bari" 510-ci hədis; ən-Nisai və Əhməd).

Əbu Hüreyrə rəvayət edir: "Rəsulullah *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir: *"Hər bir peyğəmbərin duası qəbul olunur. Peyğəmbərlər öz dualarında tələsmişlər. Mən isə öz duamı ümmətim üçün qiyamət günündə şəfaət kimi saxlamışam. İnşallah, ümmətimdən*

*olan hər kəs Allaha bir şeyi şərik qoşmasa bu şəfaətə nail olacaqdır"* (Müslim, 86 fəsil, 338).

23) Tərkibinə **"Lə iləhə illalah"** ifadəsi olan zikr ən yaxşı, ən əzəmətli, öz dərəcəsinə və tövbə gücünə görə ən qüvvətli zikrdir. Ən yaxşı dua Ərəfat gününün duasıdır. Mənim və məndən qabaqkı peyğəmbərlərin dediyi ən gözəl ifadə budur: **"Lə iləhə iləllahu vəhdəhu, lə şərikə ləhu, ləhul mulku və ləhul həmdu və huvə alə kulli şeyin qadir"** [*Vahid Allahdan başqa (ibadət haqqı olan) tanrı yoxdur. Onun şəriki yoxdur. Mülk onundur, həmdü-səna Onadır. O hər şeyə qadirdir*]" (Əhməd və ət-Tirmizi bu hədisi İbn Ömərdən rəvayət edirlər. Etibarlı hədisdir. Əl-Əlbani "Səhihü əs-sinən", 2837; əl-Müşkat-2598; əs-Səhihlər-1503).

Əbu Hüreyrənin *–radıyallahu anhu-* Hədisi: Rəsulallah *–səllallahu aleyhi və*

*alihi vəssəlləm*- demişdir: *"Bəndə* ***"Lə ilahə illallah"*** *kəlməsini tam səmimiyyətlə desə səma qapıları onun üzünə açılar, onu Ərşin yanına çatdırarlar. Böyük günahlardan uzaq olar"* (ət-Tirmizi, 2839, əl-Əlbani onun mötəbər hədis saymışdı; əl-Müşkat, 2314).

Əbu Hüreyrənin *–radıyallahu anhu-* rəvayəti: "Rəsulullah *–səllallahu aleyhi və alihi vəssəlləm*- demişdir: **"Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul mulku və ləhul həmd, va huvə alə kulli şeyin qadir"** *ifadəsini gündə yüz dəfə deyən, on qulu azad etməyin savabını qazanar, ona yüz ehsanat yazılar və yüz qəbahət ondan silinər. Həmən gün gecəyədək bu adam şeytandan qorunmuş olur. Ondan üstün yalnız daha çox yaxşı işlər görən ola bilər"* (əl-Buxari, 64/ 6403).

24) Ərəbləri birləşdirən, əcəmləri itaətə gətirən və insanları yalnız Vahid Allaha

qul edən tovhiddir. Bu kəlmə insanların qəlbinə mərhəmət gülü səpmiş, onları bir-birinə qardaş etmiş: “Ərəbin əcəmdən üstünlüyü yalnız tovhidə sədaqət və səmimiyyətlə qəbulda onun mənalarını tam yəqinliklə dərk etməklə ola bilər”.

Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* insanları tovhidə çağırmış, dəvət etmişdir: ***“Lə iləhə illəllah”*** *deyin. Bu sözlə ərəblər sizin dininizi qəbul edər, əcəblər isə təslim olarlar”* (Əhməd).

25) Bu sözlə Allah yolunda şəhid kimi ölən başqasından fərqlənir: *“Allah kəlamını ən ali dərəcəyə qaldırmaq üçün döyüşən Allah yolunun yolçusudur”* (əl-Buxari).

26) Tovhid ən ədalətli, şirk isə ən zalim olandır. Tovhid bütünlüklə saflıq və paklıqdır, şirk isə tamamilə çirk və natəmizlikdir. Tovhid ən ali hüquqdur.

Şirk isə ən böyük və ən dəhşətli günahdır.

**«Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara** *(haqqını)* **verməyi buyurarzina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər»** *(ən-Nəhl, 90).*

**«Libasını təmizlə!** *(Nəfsini günahlardan pak et!)***»** *(əl-Müddəssir, 4).*

**«Oğlum! Allaha şərik qoşma. Doğrudan da Allaha şərik qoşmaq böyük zülmdür!»** *(Loğman, 13).*

**«Ey iman gətirənlər! Müşrüklər, doğrudan da, murdardırlar. Özlərinin bu ilindən sonra Məscidülhərama yaxınlaşmasınlar…»** *(ət-Tövbə, 28).*

"*Allahın bəndəsi üzərində haqqı vardır"* (Muaz bin Cəbəlin rəvayəti, əl-Buxari və Müslim).

Abdullah bin Məsudun rəvayəti: *"Bir kişi soruşur: "Ya Rəsulullah, Allah dərgahında hansı günah daha böyükdür?*

*O deyir: “Allaha öz yaratdığı bir şeyi bənzədəsən”. Kişi soruşur. “Daha hansı?”. Peyğəmbər –səllallahu aleyhi və alihi vəssəlləm- deyir: “Sənin yeməyinə şərik olmasın deyə uşağını öldürəsən”. Kişi yenə soruşur: “Daha hansı?”. O deyir: “Qonşunun arvadı ilə zina edəsən”. İzzət və cəlalət sahibi Allah bunun təsdiqi olaraq buyurur:* **«Onlar Allahla yanaşı başqa tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz** *(adam öldürməz)*, **zina etməzlər. Hər kəs bunu etsə, cəzasını çəkər»** *(əl-Furqan, 68)*. (Bu hədis Müslimin rəvayətidir. “Kitabul iman” 37-ci fəsil, 142-ci hədis).

27) Tovhid özündə iman, islam və ehsan kimi keyfiyyətləri birləşdirir. Tovhid imanın ən əsas prinsipidir. *“De: Allaha iman gətirdim və bu imanıma sadiqəm”.* Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* bunu Süfyan bin Abdullah əs-

Səqəfi ondan “İslama aid elə bir söz de ki, onu səndən başqasından soruşa bilməyim” sualına cavab olaraq demişdir *(Müslim. İman. 13/62)*.

Qazi İyad *–rahmətullahi aleyh-* demişdir ki, Peyğəmbərin *–səllallahu aleyhi və alihi vəssəlləm-* bu sözü Allah təalanın aşağıdakı sözlərinə müvafiqdir: “Rəbbimiz Allahdır” deyib sonra sözlərinə sadiq olanlar, yəni Allahın təkliyini iqrar edib ona iman gətirdilər və sözlərində düz oldular. Onlar tovhiddən kənar durmadılar. Sübhanəhu təalaya itaətə mültəzim olmaqla vəfat etdilər.

Allah təalə buyurur: **«Şübhəsiz: “Rəbbimiz Allahdır!” - deyən, sonra da** *(sözündə)* **düz olan kəslərə** *(ölüm ayağında)* **mələklər nazil olub** *(belə deyəcəklər)*: **“Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!»** (*Fussilət, 30)*.

**«Şübhəsiz: "Rəbbimiz Allahdır!" - deyənlərin, sonra da** *(sözünün üstündə)* **möhkəm duranların** *(qiyamət günü)* **heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməyəcəklər!»** *(əl-Əhqaf, 13)*.

Əbu Hüreyrədən *–radıyallahu anhu-* belə rəvayət edirlər: "Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* demişdir: *"İmanın altmışdan, yetmişdən çox mətəbəsi vardır. Onlardan ən üstünü* ***"Lə iləhə illəllah"*** *ifadəsidir. Həya da imanın bir ünsürüdür"* (Müslim, İman, 12/58).

28) Tovhid mömin üçün cənnəti gerçəkləşdirir, cəhənnəmi isə ondan uzaqlaşdırır.

Cabir demişdir: *"Peyğəmbərin –səllallahu aleyhi və alihi vəssəlləm- yanına bir kişi gəlib deyir: "Ya Rəsulullah! Allaha münasibətdə vacib olan nədir? O belə cavab verir: "Allaha bir şeyi şərik qoşmadan ölən cənnətə,*

*Allaha bir şeyi şərik qoşaraq ölən isə cəhənnəmə daxil olur"* (Müslim, "Kitabul iman", 40/151).

29) Tovhidə əməl etmək, onunla Allaha yaxınlaşmaq, yalvarmaq müqabilində Allah insandan qəbahəti və pisliyi uzaqlaşdırır, tovhid sahibinə isə hər bir qayğıdan fərəh, hər bir çətinlikdən xilas yolu göstərir.

Üç nəfərin mağaraya girəndən sonra onun ağzının qaya parçası ilə örtülməsi barədə hədisi İbn Ömər *–radıyallahu anhu-* belə rəvayət edir: *"Rəsulullahdan – səllallahu aleyhi və alihi vəssəlləm- bu hədisi eşitmişəm: Sizdən qabaqkı adamlardan olan üç nəfər yola çıxır. Gecələmək üçün onlar bir mağaraya girirlər. Bu zaman dağdan nəhəng bir qaya parçası qopur və mağaranın ağzını bağlayır. Onlara deyirlər: "Sizi bu vəziyyətdən yalnız Allaha öz saleh əməlləriniz və duanız xilas edəcəkdir".*

*Onlardan biri deyir: "Allahım, mənim qoca atam və anam var idi. Onlarla müqayisədə nə uşaqlarıma, nə də var-dövlətə üstünlük verirdim. Bir gün çox məşğul olduğumdan evə gec gəldim. Gecədən xeyli keçmiş onlar yatandan sonra mal-qaranı sağdım. Südü onlara çatdırmaq istəyirdim ki, gördüm yatırlar. Onları oyatmaq istəmədim, onlardan qabaq ailə üzvlərimə də südü vermədim. Əlimdə süd qabı oturub onların ayılmasını gözlədim. Sübh çağı uşaqlarımın aclıqdan ağlaşma səsinə onlar ayıldılar. Südü içdilər. Allahım, mən bunu yalnız Sənin rizan naminə etdim. Bizi bu qayanın altından azad elə". Qaya bir qədər çəkildi, lakin bu onların mağaradan çıxması üçün kifayət deyildi.*

*O birisi dedi: "Allahım, bir əmim qızı var idi. Mən ona çox vurulmuşdum (başqa rəvayətdə deyilir: Mən onu*

*kişinin qadına bəslədiyi ən şiddətli bir məhəbbət ilə sevirdim). Mən onunla yaxınlıq etmək istədim, lakin o bunu rədd etdi. Bir müddətdən sonra onun vəziyyəti çox ağırlaşdı. Mənə kömək üçün müraciət etdi. Ona mənimlə yaxınlıq etmək şərtilə yüz iyirmi dinar verməyə razı oldum. Qız da razı oldu. Onunla görüşəndə qız mənə dedi: "Allahdan qorx. Bakirə üzünü yalnız haqq ilə aç". Ona vurulmağıma baxmayaraq kənara çəkildim. Vəd etdiyim qızılı da ona verdim. Allahım, mən bunu yalnız Sənin rizan naminə etdim. Yolu aç, qoy biz çıxaq". Qaya bir qədər də tərpəndi". Lakin bu yenə də onların mağaradan çıxması üçün kifayət deyildi.*

*Üçüncü şəxs dedi: "Götürdüyüm borcların hamısını qaytardım, yalnız bir nəfər öz əmanətini mənim yanımda saxladı. Bu əmanət çoxaldı, artdı, var-dövlət gətirdi. Bir müddətdən sonra*

*həmin kişi gəlib dedi: "Abdullah, əmanətimi qaytar". Mən dedim ki, gördüyün nə varsa hamısı sənin əmanətindəndir: dəvə, mal-qara, qoyun-quzu, qullar". O mənə dedi: "Abdullah, məni ələ salma!". "Dedim ki, səni ələ salmıram. O hamısını götürüb getdi. Bütün bu var-dövlətdən mənə heç nə qalmadı. Allahım, mən buna yalnız Sənin rizan naminə razı oldum. Bizim yolumuzu aç, qoy biz çıxaq". Qaya tamamilə çəkildi və bu adamlar bayıra çıxdılar"* (əl-Buxari və Müslim, səhih hədisdir).

Allah təala buyurur: **«Doğrudan da,** *(qadın)* **ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini** *(xəbərdarlığını)* **görməsəydi,** *(Yusif də)* **ona meyl edərdi. Bu pisliyi və biabırçılığı ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir!»** *(Yusuf, 24)*.

Hətta İblis belə bilirdi ki, Allahın tovhid kimi mətin qalasına yaxın düşə bilməyəcəkdir. Allah təala onun haqqında deyir: «*(İblis)* **dedi: "Ey Rəbbim! Məni azdırmağına** *(rəhmətindən kənar etməyinə)* **əvəz olaraq and içirəm ki, mən də** *(bunun müqabilində)* **onlara** *(insanlara pis əməllərini, günahlarını)* **yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam»** *(əl-hicr, 39-40)*.

Kədərli vəziyyətdən xilas olmaq üçün bu dualar oxunur: **"Lə iləhə illəllahu əl-əzimu əl-Həlim, Lə iləhə illəllahu rabbul-arşil azim, Lə iləhə illəllahu rabbus-səmavati va rəbbul-ardi və rəbbul-arşil-kərim"** [*Əzəmətli və mülayim Allahdan başqa (ibadət haqqı olan) tanrı yoxdur. Əzəmətli Ərş sahibi Allahdan başqa (ibadət haqqı olan) tanrı yoxdur. Səmaların və yerin sahibi, kəramətli Ərşin sahibi olan Allahdan başqa (ibadət*

*haqqı olan) tanrı yoxdur*] (əl-Buxari, 71-154; Müslim, 4/2092).

**“Allahummə, inni abdukə ibnu abdikə, ibnu əmətikə, nəsiyəti biyədikə, madin fiyyə hukmukə, adlun fiyyə qadaukə, əs'əlukə bikulli ismin huvə ləkə, səmmeytə bihi nəfsəkə, au ənzəltəhu fi kitəbikə, au əlləmtəhu əhədən min xalqikə, au istə'sərtə bihi fi ilmil-qeybi indəkə, ən təc'aləl-quranə rabia qəlbi, va nura sadri, va cələ'ə huzni va zəhəbə həmmi”** [*Allahım, mən Sənin qulunam, Sənin qulunun oğluyam, Sənin qulun olan qadının oğluyam! İxtiyarım Səndədir. Mənim barəmdə verdiyin hökm keçərlidir, bəxş etdiyin tale ədalətlidir. Sənə Özün verdiyin, yaxud Kitabında nazil etdiyin, məxluqlarından birinə öyrətdiyin və yaxud qeyb elmində gizli saxladığın adınla Sənə yalvarıram ki, Quranı qəlbimin baharı, köksümün nuru et, qəmimdən və narahatlığımdan xilas*

*olmağa səbəb et!*]” (Əhməd 1/391; əl-Əlbani onu təshih etmişdir).

Allah peyğəmbəri Yunusun balığın qarnında ikən oxuduğu dua: **“La iləhə illə əntə, subhanəkə inni kuntu minəz-zalimin [***Səndən başqa ibadət haqqı olan tanrı yoxdur. Sənə alqışlar olsun! Mən zalimlərdən idim*]” (ət-Tirmizi).

30) Allah təala müsəlman ümmətinə Ona üz tutan fəqir-füqərasının əli ilə tovhid sayəsində qələbə qazandırdı.

Ərəbləri aclıq, yoxsulluq və zəiflik məngənəsindən xilas edib, sərvət və qüdrətə çatdıran tovhid olmuşdur. Onlar bu sözlə bəndələrin qəlblərini, ölkələrin isə hüdudlarını fəth edə bilmişlər.

Musab bin Sad bin Əbu Vəqqas öz atasından *–radıyallahu anhu-* belə rəvayət edir: *“O elə zənn edirmiş ki, Rəsulullahın –səllallahu aleyhi və alihi vəssəlləm- başqa əshabələri ilə*

*müqayisədə xüsusi bir üstünlüklərə malikdir. Peyğəmbər –səllallahu aleyhi və alihi vəssəlləm- ona deyir: "Allah bu ümmətə Onun sadə adamlarının duasına, namazına və sədaqətinə görə qələbələr bəxş edir"* (ən-Nisai "əs-Sünən", 2978; Ət-Tirmizi və başqalarının rəvayətində sədaqət sözü yoxdur).

31) Tovhidlə görülən əməl qəbul edilir. Onun əcrini artırır. Tovhidsiz əməl çoxalsa da heçdir, faydasızdır.

**«Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!»** *(əl-Kəhf, 110).*

Əbu Umamə əl-Bəhili *–radıyallahu anhu-* demişdir: *"Bir kişi Rəsulullahdan –səllallahu aleyhi və alihi vəssəlləm- soruşur: "Ya Rəsulullah! Mükafat və şöhrət üçün döyüşə gedən nə qazanacaqdır?" Peyğəmbər –səllallahu aleyhi və alihi vəssəlləm- deyir ki, heç nə*

*qazanmayacaqdır. Kişi sualını üç dəfə təkrarlayır. Peyğəmbər –səllallahu aleyhi və alihi vəssəlləm- yenə də "heç nə" deyib cavabını tamamlayır: "Yalnız səmimi qəlbdən gələn və Allahın rizası üçün edilən əməl qəbul olunur"* (ən-Nisai, "Səhih əs-sünən", 2943, səh. 659. Səhih hədisdir).

«*(Ya Məhəmməd)* **Sənə və səndən əvvəlkilərə** *(keçmiş peyğəmbərlərə)* **belə vəhy olunmuşdur: "Əgər** *(Allaha)* **şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!»** *(əz-Zumər, 65)*.

32) Tovhidi həyata keçirməyə görə Peyğəmbərlərin məqamlarının üstünlüyü müəyyən edilir. Daha çox uğur qazanan daha üstün olur.

Ən əzəmətli Peyğəmbər Məhəmməd – *səllallahu aleyhi və alihi vəssəlləm*-dir. Buna görə də o, məxluqlar üçün şəfaətində böyük kəramət sahibidir, ali

məqam və birbaşa əlaqə dərəcəsinə çatmışdır. Allah təala buna görə onu Özünə ən yaxın adam bilmiş, Təalanın ən şərafətli qulu etmişdir: «**...Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır** *(pis əməllərdən çəkinəninizdir)...*» *(əl-hücurat, 13)*.

«**Allahın bəndəsi** *(Məhəmmədəleyhissəlam)* **qalxıb Ona ibadət edəndə** *(cinlər Quranı dinləmək üçün toplaşmış izdihamın çoxluğundan)* **az qala bir-birinin üstünə minələr.** *(Ya Peyğəmbər)* **De: "Mən ancaq öz Rəbbimə ibadət edirəm və heç kəsi Ona şərik qoşmuram!**» *(əl-Cin, 19-20)*.

Həmçinin Allahın xəlili (sevimlisi) İbrahim də belədir. Bununla belə onlar şirkdən qorxmuşlar. Allahdan onları və ardıcılların bundan qorumağı dua etmişlər. Çünki Allah Ona şərik qoşanı bağışlamır: «**...Məni və oğullarımı**

**bütlərə tapınmaqdan uzaq elə!»** *(İbrahim, 35)*.

Yəni məni və övladlarımı bütlərə sitayiş və ibadət etməkdən qoru, çəkinməyi vacib olanları göstər.

**«Ey Rəbbm! Onlar** *(bütlər)*, **həqiqətən, çox insanı** *(haqq yoldan)* **azdırıblar…»** *(İbrahim, 36)*.

İbrahim ət-Teymi demişdir: "İbrahimdən sonra özünü bu bəladan (şirkdən) kim təhlükəsiz biləcəkdir?"

Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* Məsih Dəccalı xatırladan əshabələrinə demişdir: *"Mən sizin kiçik şirk etməyinizdən qorxuram". Ondan soruşurlar: "Kiçik şirk nədir, ya Rəsulullah?" O belə cavab verir, "Riyakarlıq". Allah təala qiyamət günü insanları öz əməllərinə görə mükafatlandıran zaman deyir: "Gedin o kəslərin yanına ki, onlar üçün çalışmışsınız. Baxın görün onların*

*yanında mükafatlana bilərsinizmi?"* (Əhməd, ət-Təbərani, əl-Beyhəqqi).

Deməli, Peyğəmbər *–səllallahu aleyhi və alihi vəssəlləm-* hətta onunla iman gətirən, hicrət edən, cihada gedən, səbr edən, birləşən əshabələrinə şirkin zərər yetirəcəyindən qorxmuşdur. O, şirkin bu ümmətə yetişəcəyi barədə xəbər vermişdir.

33) Tovhid-təqvadır (Allahdan qorxmaqdır). İmanı tovhidə əsaslanan möminin təqvası güclü olar. İmanı tovhidə əsaslanmayan adam bundan heç bir xeyir görməz, nəsibi əziyyət və yorğunluq olar. O, buddistlərin zahidləri, xristianların rahibləri kimi olacaqdır.

Allah təala tovhidlə Allahdan qorxanları mədh etmiş, təriflәmişdir. Bu adamlar kəramətli əshabələr olmuşlar. Onlar barədə deyilmişdir: **«...onlara təqva kəlməsini xas etmişdi. Onların bu**

**sözə** *(Məkkə müşriklərindən)* **daha çox haqqı var idi və ona layiq idilər...»** *(əl-Fəth, 26)*.

34) Tovhid bütünlüklə sədaqət və səmimiyyət deməkdir. Onunla insan səmimi olur. İnsanı öz Rəbbi, özü ilə, başqa insanlarla münasibətdə sədaqət və səmimiyyət yoluna yönəldən tovhiddir.

Allah təala buyurur: **«Haqqı** *(Quranı)* **gətirən və onu təsdiq edənlər** *(Peyğəmbər və möminlər)* **isə müttəqilərdir»** *(əz-Zumər, 33)*.

Bu ayədə əshabələrin sədaqət və səmimiyyətinə işarə edilir və şəhadət verilir. Çünki onlar Rəsulullahın – *səllallahu aleyhi və alihi vəssəlləm*- dediklərini tam səmimiyyətlə qəbul etmişlər.

35) Tovhid qırılmaz və mətin tellər deməkdir. Onları qırmaq qeyri mümkündür. Çünki o, bir-birini

tamamlayan iki hissədən ibarətdir: isbat və inkar.

"Lə iləhə" - Tanrı (ilah) yoxdur" ifadəsi inkar, "İlləllahu" - Allahdan başqa" isbat bildirir. Bunu qəbul edən tovhidi qəbul etmiş olur.

Tovhid öz sahibini ağır vəziyyətdə qoymur. Tovhid qəlbə girəndə orda sabitləşir, onu mətinləşdirir. Ona Allaha bağlılıqla xatircəmlik gətirir. Təalanın buyurduğu kimi: **«Dində məcburiyyət yoxdur. Artıq doğruluq** *(iman)* **azğınlıqdan** *(küfrdən)* **ayırd edildi. Hər kəs Tağutu** *(Şeytanı və ya bütləri)* **inkar edib Allaha iman gətirərsə, o, artıq** *(qırılmaq bilməyən)* **ən möhkəm bir ipdən yapışmış olur. Allah** *(hər şeyi olduğu kimi)* **eşidəndir, biləndir!»** *(əl-Bəqərə, 256)*.

36) Tovhid əbədi bir kəlmədir, yəni tovhidə çağırış bu gün də davam edir. İbrahim -*əleyhissəlam*- Allahın əmri ilə

bu sözün öz nəslində (zürriyyətində) həmişəlik qalmasını istəmişdir.

Rəbbin dərgahında insana qalan, ona xeyir verə bilən yalnız tovhiddir. Heç nə tovhid qədər insana xeyir verə bilməz. Allah buyurur: **«İbrahim** *(lə iləhə illəllah)* **kəlməsini öz nəsli arasında həmişəlik qalan bir söz etdi. Bəlkə, (Məkkə müşrikləri bütpərəstlikdən əl çəkib babaları İbrahimin dininə) qayıdalar!»** *(əz-Zuxruf, 28)*.

37) Tovhid həm də təqva — Allahdan qorxmaq və Ona məhəbbət bəsləmək deməkdir. Allah təala belə buyurur: **«Kafirlər öz ürəklərində Cahilliyyət təkəbbürü və təssübünə qapıldıqları zaman Allah Peyğəmbərinə və möminlərə Öz dərgahından arxayınlıq** *(qəlb rahatlığı, mənəvi möhkəmlik)* **göndərmiş və onlara təqva kəlməsini** *(Lə iləhə illəllah, Muhəmmədun rəsulullah)* **xas etmişdir. Onların bu sözə** *(Məkkə*

*müşriklərindən)* **daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi biləndir!»** *(əl-Fəth, 26).*

Allah təaladan təqva (yəni Allahdan qorxu və Ona məhəbbət) tovhidə əsaslanmalıdır. Tovhidə əsaslanmayan təqva yalandır. Yəhudilərin, xristianların və onlar kimilərin təqvası bu qəbildəndir. Onlar da ibadət edir, sədəqələr verirlər, xeyirxah işlər görürlər. Lakin onlar bütün bunları tovhidsiz etdikləri üçün təqvaları məqbul olmur.

Bu ayə göstərir ki, tovhidi qəbul etmək və ona əməl etmək, adamın Allahdan qorxan (təqva sahibi) olması üçün kifayətdir. Bu ayə Allahın əshabələr üçün istəmiş olduğu təqvaya, onların bunu vacib bilməsinə, şəhadətinə, əshabələrin təqva sahibləri olmasına açıq-aydın dəlildir. Onlar tovhidə çox mültəzim adamlar olmuşlar.

Biz də fikirləşək!

38) Tovhidə tam sədaqətlə bağlılıq öz sahibini asiliyə yuvarlanmaqdan qoruyan ən böyük amillərdəndir. Bu Allah təalanın kəramətindəndir.

Təalanın buyurduğu kimi: **«Doğrudan da,** *(qadın)* **ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini** *(xəbərdarlığını)* **görməsəydi,** *(Yusif də)* **ona meyl edərdi. Bu pisliyi və biabırçılığı ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir!»** *(Yusuf, 24)*.

Allah təala Yusifi *-əleyhissəlam-* asiliyə yol verməkdən sadiq müvəhhid (tovhid sahibi) olduğu üçün xilas etmişdi.

39) Tovhid öz sahibini şeytandan və onun hiyləsindən qoruyan ən böyük maneədir. Şeytan müvəhhid bəndəyə yaxın dura bilmir. Müvahhidlərə doğru gedən yol onun üzünə bağlıdır. Çünki

Allah tovhidlə öz bəndələrini toxunulmaz və günahlardan məsum (pak) etmişdir. Bunu şeytan da yaxşı bilir.

Əgər şeytan hər hansı bir günahla müvəhhidi aldadıb yoldan çıxardarsa, o ayılan kimi Rəbbini yada salır, ona tövbə edir. Öz Rəbbindən bağışlanma diləyir. Bu istək cənnətdə onun dərəcəsini artırır, düşməni İblisə isə zərbə vurur.

Allah təala buyurur: **«Yalnız Sənin sadiq bəndələrindən başqa!"** *(əl-hicr; 40)* və **«Yalnız Sənin sadiq bəndələrindən başqa!»** *(Sad, 83)*.

Bu mübarək ayələr İblisin Adəm övladlarını yoldan azdıracağı hədəsindən sonra onun yalnız Allahın sadiq bəndələrini azdırmaqda aciz olduğunu etiraf etməsini bildirir.

40) Tovhid haqqında ayələr və hədislər şeytanın sənin evinə girməsinə mane

olduğunu, səni sehirbazlardan qoruduğunu bilməlisən. Gecə-gündüz tovhid dualarını oxusan buna nail olarsan.

*Bir dəfə bir cani zəkat mallarının oğurlamaq üçün gəlir. Əbu Hüreyrə –radıyallahu anhu- onu həbs edib Rəsulullaha –səllallahu aleyhi və alihi vəssəlləm- təhvil vermək istəyir. Oğru Əbu Hürəyrədən –radıyallahu anhu-nicat diləmək məqsədilə deyir ki, məni burax, sənə bir sirri açaram. O razılaşır. Oğru deyir: "Yatmamışdan qabaq Kürsi ayəsini oxu ki, Allah səni səhərə qədər qoruyacaq bir adam göndərsin və şeytan da sənə yaxın düşməsin". Əbu Hüreyrə bunu Rəsullullaha –radıyallahu anhu- danışdıqda o deyir: "Özü yalançı olsa da sənə düz deyib"* (əl-Buxari).

Müsəlman qardaş! Bu risaləni oxuyub başqasına da ver, qoy oxusun. Bununla sənin əcr və savabın artar.

Risalədə mübarək ayələr və şərafətli hədislər verildiyi üçün onu layiqli yerdə saxla!

İnşallah şəriət risalələri silsiləsindən növbəti risaləmizi gözləyin.